AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

27 aprel 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 16 (3630)



100 il

**Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir. Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də DİN-nin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeyini qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.*

*Dövlətimizin başçısı aprelin 25-də İsrail Dövlətinin müstəqilliyinin 75-ci ildönümü münasibətilə Prezident zati-aliləri cənab İsxak Hersoqa təbrik məktubu ünvanlayıb.*

*Ölkəmizin rəhbəri aprelin 26-da 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.*

# AZƏRBAYCANLA STRATEJİ TƏRƏFDAŞLIQ İŞIQLI GƏLƏCƏK VƏD EDİR




Aprelin 25-də Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasına işgüzar səfərə gedib.

Həmin gün Azərbaycan Prezidendi İlham Əliyevin və Bolqarıstan Prezidenti Rumen Radevin iştirakıyla Sofiyada “Bulgartransgaz” (Bolqarıstan), “Transgaz” (Rumıniya), FGSZ (Macarıstan) və “Eustream” (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu”nun imzalanması mərasimi keçirilib.

Mərasimdə çıxış edən ölkəmizin rəhbəri Anlaşma Memorandumunun Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcəyini, daha çox qaz ixracına fürsət yaradacağını bildirib: “Bu gün Enerji Komissarı xanım Simsonun, Avropa Komissiyasının digər rəsmilərinin və dostlarımızın artıq qeyd etdiyi kimi, Azərbaycan Avropanın, mən deyərdim ki, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. Sizə məlumat vermək istəyirəm ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan “Strateji Tərəfdaşlıq haqqında” Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.

Əminəm ki, bu gün keçirilən mühüm mərasim əməkdaşlığımızın gücləndirilməsində atılan növbəti addım olacaq”.

Dövlətimizn başçısı həmçinin qeyd edib ki, fəal enerji diplomatiyamız davam etdirilir. Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə, bizim aramızda güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, Avrasiyanın enerji xəritəsi yenidən cızılır.

Prezident İlham Əliyevin Bolqarıstana sonuncu - 2022-ci il 30 sentyabr - 1 oktyabr tarixli rəsmi səfəri çərçivəsində Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun istismara verilməsi ilə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açılmışdı.

Qeyd edək ki, siyasi analitiklər dövlətimizin başçısının Bolqarıstana səfəri zamanı Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasını, enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addım kimi qiymətləndirirlər. Bütün bunlar SOCAR-ın Bolqarıstandakı fəaliyyətinin genişləndirilməsi zərurətini yaradır. Bolqarıstanın tənzimləyici qurumu artıq “SOCAR Trading”ə Avropa ərazisində təbii qaz ticarəti ilə məşğul olmaq üçün lisenziyanı təsdiqləyib. SOCAR-ın Bolqarıstandakı ofisinin açılması şirkətin Avropa bazarında fəaliyyətinin daha da genişləndirilməsinə mühüm töhfə verəcək.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevlə Bolqarıstan Prezidenti Rumen Radevin təkbətək görüşü olub. Görüşdə “Həmrəylik Halqası” adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd edilib. Ölkələrimiz arasında əməkdaşlıq məsələləri müzakirə olunub, bu xüsusda Azərbaycanın etibarlı tərəfdaş kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə verdiyi töhfəsi vurğulanıb.

Söhbət zamanı siyasi, iqtisadi, nəqliyyat, energetika və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# Salyanda “ASAN xidmət” mərkəzinin açılışı olub







Azərbaycan Prezidenti İlham Əliyev mərkəzin açılışını edib.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verib. Respublika üzrə sayca 25-ci olan Salyan regional “ASAN xidmət” mərkəzi əsasən Salyan, Neftçala, Biləsuvar, Şirvan rayonlarında qeydiyyatda olan ümumilikdə 426 min 600 vətəndaşa xidmət edəcək. Mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək.

Dövlətimizin başçısına innovativ yeniliklər - “Metaverse” platforması, “METASAN xidmət”, “Evə dönüş” layihəsi, “e-ASAN” avadanlığı, “Charge Box” elektrik qidalanma stansiyaları barədə də məlumat verilib.

Sonra Prezident İlham Əliyevə “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)” Azərbaycan Respublikasının ilk yubiley medalı, həmçinin “ASAN xidmət” kollektivi adından qurumun 10 illiyinə həsr olunmuş və ABAD tərəfindən hazırlanmış xatirə hədiyyəsi təqdim olunub.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyev tərəfindən dövlət idarəçiliyinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar xüsusi vurğulanmalıdır. “ASAN xidmət” mərkəzlərinin yaradılması da bu islahatların tərkib hissəsidir. Bu mərkəzlər dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir.

Hazırda Azərbaycanda 25 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və Salyandadır.

# Həmkarlarımız Ramazan bayramında şəhid ailələrini ziyarət ediblər

Ənənəsinə sadiq qalan Azərbaycan Polisi 11 ayın sultanı olan Ramazan bayramında da qazilərə və şəhid ailələrinin üzvlərinə baş çəkib.

Beyləqan rayonunda şəhid ailələrini ziyarət edən RPŞ-nin əməkdaşları onları Ramazan bayramı münasibətilə təbrik edib, qayğıları ilə maraqlanıblar. Həmkarlarımız özlərilə gətirdikləri bayram sovqatlarını onlara təqdim ediblər.

Xocavənd RPŞ-nin əməkdaşları da bu nəcib təşəbbüsə qoşulublar. Şəhidlərimizin ailə üzvlərini, övladlarını təbrik edən həmkarlarımız onlara maddi və mənəvi dəstək göstəriblər.

Şəhid ailə üzvləri onlara göstərilən diqqətə və qayğıya görə ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, digər rayonlarda da şəhidlərin ailə üzvləri ziyarət olunub.

# Polis baş leytenantı beynəlxalq konfransda iştirak edib



Özbəkistan Respublikası Ali və Orta İxtisas Təhsil Nazirliyi və Acıniyazov adına Nukus Dövlət Pedaqoji İnstitutunun təşkilatçılığı ilə keçirilən “Distant təhsilin ənənəvi təhsil sisteminə inteqrasiyası” mövzusunda Üçüncü Beynəlxalq elmi-praktik konfransda DİN-in Polis Akademiyasının Dil hazırlığı kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru, polis baş leytenantı Aynur Səfərli “Özbək lətifə qəhrəmanı Nasraddin Apandi” adlı məqalə ilə çıxış edib.

Məqalədə türkdilli xalqların bir-birindən uzaq coğrafiyalarda yaşamalarına baxmayaraq eyni dildə və milli ruhda mədəni abidələr yaratmalarının tarixi hadisə adlandıran müəllif ortaq dəyərlərin qarşıya çıxan bütün əngəlləri aşdığını vurğulayıb.

Həmkarımız Molla Nəsrəddin Xocanın türk boyları arasında mədəni birliyin, həmrəyliyin simvoluna çevrilməsinə və bunun müasir dünya düzəninə təsirinə də diqqət çəkib.

Türk dövlətlərini təmsil edən 50-dən çox tədqiqatçı-alimin iştirak etdiyi konfransda məruzəçilər Özbəkistan Respublikası Ali və Orta İxtisas Təhsil Nazirliyi və Acıniyazov adına Nukus Dövlət Pedaqoji İnstitutunun sertifikatı ilə təltif olunublar.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# “Şahidin dindirilməsi” müsabiqəsi keçirilib

***Ölkəmizdə 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar Polis Akademiyasında ümummilli liderin zəngin həyat yoluna həsr olunmuş silsilə tədbirlər davam etdirilir.***

Bugünlərdə Polis Akademiyasında Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş simulyasiya əsaslı “Şahidin dindirilməsi” müsabiqəsi keçirilib. Müsabiqənin məqsədi müxtəlif cinayət faktları üzrə modelləşdirilmiş vəziyyətlərdə tələbə və kursantların ixtisas fənləri üzrə əldə etdikləri biliklərin möhkəmləndirilməsi, peşə vərdiş və bacarıqların formalaşdırılması, həmçinin ali təhsil müəssisələri arasında əməkdaşlığın genişləndirilməsidir.




Dindirmə prosesinin simulyasiyasını nəzərdə tutan “Şahidin dindirilməsi” müsabiqəsinə hazırlıq, (təlim) necə deyərlər, iştirakçıların sınaq mərhələsi olub. Müsabiqənin yarım finalına “Azərbaycan Hava Yolları” QSC-nin Milli Aviasiya Akademiyasının və Polis Akademiyasının komandaları vəsiqə qazanıblar.

**Final mərhələsində Polis Akademiyasının “Kriminalistika” kafedrasının rəisi, polis polkovnik-leytenantı Orxan Yaqublu iştirakçılara uğurlar arzulayıb.**

Polis Akademiyasının 4-cü kurs kursantları, polis sıravilləri Rəhim Rəhimli və Fərid Şükürlü müsabiqənin qalibi olublar. “Azərbaycan Hava Yolları” QSC-nin Milli Aviasiya Akademiyasının 4-cü kurs tələbələri Kənan Qələndərov və Yəhya Abdullalı isə ikinci yerə layiq görülüblər.

Tədbirin sonunda hər iki komandanın üzvlərinə, “şahidlərə”, eyni zamanda fəallıq nümayiş etdirənlərə qiymətli hədiyyələr və sertifikatlar təqdim edilib.




Qeyd edək ki, müsabiqədə “xəyali şahid” kimi Azərbaycan Respublikası Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin tələbəsi Nərmin Ağayeva iştirak edib.

Tədbirə qonaq qismində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyinin idarə heyətinin sədri və üzvləri, “Azərbaycan Hava Yolları” QSC-nin Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin tələbələri dəvət olunublar.

# NARKOMANİYA ÖZÜNƏQƏSDDİR

***Ağdam Dövlət Sosial İqtisad Kollecində Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə narkomaniyaya qarşı maarifləndirmə tədbiri keçirilib.***

Görüşdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Pərviz İsmayılov narkomaniyanın cəmiyyət üçün yaratdığı problemlərdən, insan sağlamlığına ziyanından danışıb. O, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərini diqqətə çatdırıb. Gənclərə təhsilə, idmana daha çox maraq göstərmələrini tövsiyə edən şöbə rəisi, həmçinin narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyini önə çəkib.



Zərdab rayon 2 saylı tam orta məktəbdə şagirdlər, valideynlər, eləcə də pedaqoji heyət qarşısında çıxış edən RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı İkram Əhmədov narkotik vasitələrin, psixotrop maddələrin, o cümlədən onların prekursorlarının yaratdığı fəsadlarla yanaşı, narkomaniyanın mənəvi və əxlaqi dəyərlərə ciddi zərbə vurduğunu, insanı sözün əsl mənasında, “zombiyə” çevirdiyini vurğulayıb.

Antinarkotik təbliğatı çərçivəsində Cəlilabad rayonu Alar kənd 1, 2 və 3 nömrəli tam orta məktəblərdə keçirilən maarifləndirici tədbirlərdə RPŞ-nin əməkdaşları, müəllimlər, yuxarı sinif şagirdləri və valideynlər iştirak ediblər.

Görüşdə Cəlilabad RPŞ-nin rəisi, polis polkovniki Polad Qarayev və digər çıxışçılar müasir dövrdə bütövlükdə bəşəriyyət üçün böyük bəlaya çevrilən narkomaniya ilə mübarizənin vacibliyindən, sağlam gəncliyin və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin zəruriliyindən danışıblar, “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın uğurla icra olunduğunu vurğulayıblar. Onlar iştirakçılara ölkəmizdə narkomaniyaya qarşı mübarizədə həyata keçirilən genişmiqyaslı əməliyyat tədbirləri, eləcə də ötən il ərzində qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin çəkisi barədə də ətraflı məlumat veriblər.

Daha bir maarifləndirmə görüşü Şuşa Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Bakı şəhərində fəaliyyət göstərən rayonun Quşçular kənd tam orta məktəbində keçirilib.

Çıxış edənlər bəşəriyyətin ən ağrılı problemlərindən olan, cəmiyyətin ciddi bəlasına, milli-mənəvi təhlükə mənbəyinə çevrilən narkomaniyanın dinindən, irqindən, milliyyətindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcəli təhlükə olduğunu diqqətə çatdırıblar.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.

*“Polis”*

# Qadın həmkarlarımız yenə xidmətdədir

Aprelin 28-30 tarixlərində keçiriləcək 7-ci “Formula 1” Azərbaycan Qran – Prisində təhlükəsizliyin təmin edilməsinə, həmişə olduğu kimi, qadın polis əməkdaşları da cəlb edilib. Bununla bağlı Bakı şəhər BPİ-də qarnizon üzrə qrupun sıra baxışı keçirilib.

Baş İdarənin İctimai Təhlükəsizlik İdarəsindən qəzetimizə bildirilib ki, paytaxtın polis idarələrindən xidmətə seçilmiş qadın əməkdaşların təmin olunduqları yeni geyimlərə baxış keçirməklə yanaşı, yarışdan qabaq təlimatlandırılıblar. Eləcə də postlara təhkim olunanların xidmət yerləri, gecə və gündüz olmaqla növbəlilik prinsipilə əməkdaşlar arasında iş bölgüsü aparılıb.



Əsasən nəzarət buraxılış-postlarında xidmət edən qadın həmkarlarımızın əvvəlki beynəlxalq əhəmiyyətli kütləvi idman tədbirlərindən zəngin təcrübələri var. Onlarla bərabər yeni əməkdaşlar da aprelin 26-dan etibarən xidmətə başlayıblar.

*“Polis”*

# Sağlamlığımızın keşiyindədirlər



Bu gün ölkəmizdə müasir standartlara cavab verən hospitallar arasında DİN-in A.Heydərov adına Respublika Hospitalının adı ilk sırada çəkilir. Zəngin maddi-texniki bazaya və peşəkar tibbi personala malik bu tibb ocağında daxili işlər orqanları əməkdaşları, onların ailə üzvləri, veteranlarla yanaşı, digər vətəndaşlar da müalicə alıb sağlıqlarına qovuşurlar.

**Bu barədə Qarabağ müharibəsi və polis veteranı Nəbi Nəsirov DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır:** "Diabetdən və hepatit C xəstəliyindən əziyyət çəkirəm. Səhhətimdə yaranan ağırlaşmalara çarənin məhz A.Heydərov adına Respublika Hospitalının peşəkar həkimləri tərəfindən tapılacağına inanırdım. Elə də oldu, 1 saylı poliklinikaya müraciət etdim məni Hospitala göndərdilər. Hospitalın rəisi, tibb xidməti polkovniki İsbi Babaxanov məni qəbul etdi. Burada xəstələrə yüksək səviyyədə göstərilən diqqət və qayğının şahidi oldum. Müayinə və müalicəm təmin edildi. Son illərdə daha da təkmilləşən Hospitalda tibbi xidmət müasir səviyyədə təşkil olunub. Bura müraciət edən hər bir pasiyent bu sağlamlıq ocağının təcrübəli və qayğıkeş tibb ailəsindən məmnunluq edir. Peşəkar tibb personalı tərəfindən mənə göstərilən xidmətdən çox razı qaldım”.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

# Könüllərdə xatirəsi, torpaqda izi qalanlar

**Vətən uğrunda şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızdan biri də çavuş Ələsgərzadə Sənan Muxtar oğludur.**

O, 1995-ci il oktyabrın 10-da Şəki rayonunun Əliyar kəndində doğulub. Sənan orta təhsilini Əliyar kənd ümumi orta məktəbində alıb.

2013-cü ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ilin aprel ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12318 və 25033 saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra 2016-cı ilin aprel ayında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, 16073 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin manevr qrupunun atıcı-sanitarı vəzifəsinə təyin edilib. 2017-ci ilin avqust ayından etibarən hərbi hissənin "Bəbir" şərti adını daşıyan xüsusi təyinatlı dəstədə çavuş S.Ələsgərzadə əvvəlcə atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun heyət nəfəri, 2018-ci ilin may



ayından isə xüsusi həmlə qrupunun atıcı-heyvan təlimçisi vəzifəsində xidmət edib.

Vətən müharibəsi başlayanda 2020-ci il sentyabrın 28-dən hərbi əməliyyatlara qatılan hərbi qulluqçumuz Füzuli, Cəbrayıl və Xocavənd rayonları istiqamətlərində yerləşən bir çox yaşayış məntəqəsinin və ayrı-ayrı strateji yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə əsl xüsusi təyinatlı kimi fərqlənib.

19 oktyabr 2020-ci il. Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdə dəstə komandiri mayor Şixamir Qaflanovun rəhbərliyi altında vuruşan cəsur xüsusi təyinatlılar ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək mühüm mövqelər ələ keçirirlər. Lakin məğlubiyyətlə barışmaq istəməyən düşmən digər yüksəkliklərdə yerləşən postlarından itirdiyi mövqeləri snayperlərdən və iriçaplı silahlardan güclü atəşə tutur. Düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində Sənan sağ qolundan ağır qəlpə yarası alır. Yoldaşları tərəfindən ona ilk tibbi yardım göstərilməsinə, döyüş meydanından təxliyyə olunmasına baxmayaraq, yarası ağır olduğundan və çoxlu qan itirdiyindən çavuşumuz şəhid olur.

Bu döyüşdə Sənanla birgə Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin digər 3 nəfər cəsur hərbi qulluqçusu – mayor Şixamir Qaflanov, baş çavuş Surxay Mehdiyev, baş çavuş Sahib Məmmədov, həmçinin Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin 8 nəfər xüsusi təyinatlısı şəhid olur. "Bəbir" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin digər hərbi qulluqçuları - baş çavuşlar Toğrul Ağayev, İlqar Əhmədov, Elçin Məcidov, Tahir Əliyev, Vüqar Hüseynli, çavuşlar Gözəl İmanov, Araz Hüseynov, İbrahim Kutulasov, Sənan Qənbərov, Sahil Həsənov, Məhəmməd Atayev və Orxan Abdullayev yaralanırlar.

Çavuş S.Ələsgərzadə 2020-ci il oktyabrın 20-də Əliyar kəndinin Şeyx Osman qəbi-



ristanlığında dəfn olunub. Sənan nişanlı olsa da, 2020-ci ilin aprel ayına planlaşdırılmış toy mərasimi ölkəmizdə elan edilmiş pandemiya şəraiti ilə əlaqədar təxirə salınmışdı. O, müharibə xalqımızın qələbəsi ilə başa çatdıqdan sonra toy edib ailə həyatı qurmağı və xoşbəxt ömür sürməyi düşünürdü.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Ələsgərzadə Sənan Muxtar oğlu ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qürur hissi ilə qeyd etməliyik ki, şəhidin qardaşı Elmas Ələsgərzadə də Vətən müharibəsi iştirakçısıdır. Murovdağ istiqamətində gedən döyüş əməliyyatlarında fərqləndiyinə görə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində o daxili işlər orqanlarında xidmətə qəbul edilib. E.Ələsgərzadə hazırda Şəki Şəhər-Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti bölüyünün polis nəfəridir.

*mayor Anar Əhmədov*

# Tarix yazan əbədi lider



Daxili İşlər Nazirliyinin Baş Mühafizə İdarəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə ulu öndərin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Daha sonra Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan **DİN Baş Mühafizə İdarəsinin rəisi, polis general-mayoru Nurullah Məmmədxanlı** bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində



misilsiz xidmətlərindən danışıb. N.Məmmədxanlı, həmçinin, ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edərək onun irsinin xalqımızın qəlbində əbədi yaşayacağını qeyd edib.

Tədbirdə iştirak edən professor, tarix elmləri doktoru Nuru Məmmədov və Ələmdar Şahverdiyev çıxışlarında Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini, müasir gənclik tərəfindən ulu öndərin siyasi irsinin daha dərindən öyrənilməsini və gələcək nəsillərə ötürülməsini xüsusi vurğulayıblar. Həmçinin ümummilli liderin parlaq ideyalarının davamçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı zəfərin tarixə qızıl hərflərlə həkk olunduğu da qeyd edilib.

Tədbirin sonunda ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

*Nurlan Əliyev,*
*polis baş leytenantı*

# Yevlaxda ağacəkmə aksiyası keçirilib



Yevlaxda ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında Rayon Polis Şöbəsinin şəxsi heyəti də iştirak edib. Polislər xüsusi ayrılmış ərazidə iqlimə uyğun Eldar şamı əkiblər. Aksiya iştirakçıları bu nəcib addımı atmaqla ulu öndərin sağlığında təbiətin mühafizəsinə və ekoloji mühitin təhlükəsizliyinə verdiyi önəmə diqqət çəkiblər.

# Ulu öndərə sayğı ilə...



**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Quba Rayon Polis Şöbəsinin şəxsi heyəti arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə yarış keçirilib.**

Ulu öndərin, Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda, eləcə də Vətən müharibəsində şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

**Tədbiri giriş sözü ilə açan RPŞ-nin rəisi, polis polkovniki Mehman Əliyev** ulu öndərin idmana və idmançılara dövlət səviyyəsində göstərdiyi qayğıdan, ölkəmizdə idmanın yüksək səviyyədə inkişaf etməsi üçün geniş imkanların yaradılmasından bəhs edib. Bildirilib ki, ötən illər ərzində ölkəmiz möhtəşəm idman tədbirlərinə evsahibliyi edib, dünyada idman ölkəsi kimi tanınıb.

Sonra yarışa start verilib. Birincilik uğrunda müxtəlif çəki dərəcələri üzrə 110-a yaxın iştirakçı gücünü sınayıb.

**Şirvan Şəhər Polis Şöbəsinin** əməkdaşları arasında keçirilən silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə turnirdə isə 40 idmançı mübarizə aparıb. İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Aydın Həşimov qaliblərə medal və diplomları təqdim edib.

**Daha bir yarış Neftçala Rayon Polis Şöbəsinin** şəxsi heyəti arasında keçirilib. Gərgin idman mübarizəsinin sonunda müxtəlif çəkilər üzrə ən güclülər müəyyən olunub.

Qeyd edək ki, turnirlərin keçirilməsində məqsəd daxili işlər orqanları əməkdaşları arasında silahsız özünümüdafiə və əlbəyaxa döyüş bacarıqlarının daha da təkmilləşdirilməsidir.

*T.Əlizadə*

***Uşaq əməyinin istismarı və insan alveri qurbanı olmasının qarşısının alınması sahəsində qurumlararası işin təşkili məqsədilə Şirvan şəhərində növbəti tədbir keçirilib.***

# UŞAQLARLA BAĞLI VACİB TƏDBİR

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə Şirvan, Neftçala, Hacıqabul, Salyan və Sabirabad Rayon İcra hakimiyyətlərinin nümayəndələri, Daxili İşlər Nazirliyinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə inspektorları, Rayon Polis idarələrinin Post-Patrul Xidmətinin manqa komandirləri, eləcə də kiçik və orta bizneslə məşğul olan sahibkarlar iştirak edib.

Bakı Şəhər Baş Polis İdarəsi İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova ekspert qismində tədbirdə iştirak və çıxış edib. Uşaq əməyinin istismarı və insan alverinə qarşı ölkə qanunvericiliyi, eləcə də beynəlxalq konvensiyaların tələbləri, mübarizə tədbirləri barədə danışan K.Ələkbərova transmilli cinayətlərə qarşı da mübarizənin müasir tələblərə uyğun aparıldığını və bu sahədə önəmli nəticələrin əldə edildiyini vurğulayıb.

*"Polis"*

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ !

### 2023-cü il üçün DİN-in Polis Akademiyasında fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbula dair elan

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2021-ci il 26 noyabr tarixli Q17-001-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına daxili işlər orqanları əməkdaşlarının qəbulu Qaydası"na əsasən 2023-cü il üçün fəlsəfə doktoru hazırlığı üzrə daxili işlər orqanları əməkdaşlarının doktorantura və dissertanturaya aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir.

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir.

**Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün 11 aprel – 11 iyun 2023-cü il tarixlərində əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.**

Raporta aşağıdakı sənədlər əlavə edilir:

-şəxsiyyət vəsiqəsinin surəti;

- tərcümeyi-hal;

- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);

- xarici dil bilikləri üzrə beynəlxalq sertifikatın surəti (IELTS, TOEFL, TestDaf, DELF, DALF, STANAG - əgər varsa);

- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat.

Bütün imtahanların məzmunu (proqramı) Akademiyanın rəsmi saytında yerləşdiriləcək.

Qəbul qaydaları haqqında ətraflı məlumatı Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsindən və rəsmi internet səhifəsindən (www.pa.edu.az) əldə etmək olar.

**Daha ətraflı məlumatı Polis Akademiyasının +99412 454-13-85; +99412 454-34-57 nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## Mükafatlı sual rubrikası

Bu mahnı 1918-ci ildə Nuru paşanın rəhbərliyi altında Gəncədən Bakıya gələn və şəhəri xilas edən türkiyəli əsgərləri vəsf edir. O Azərbaycanın tanınmış sənətçilərinin ifasında ölməzlik qazanıb.

**Söhbət hansı mahnıdan gedir?**

**Vatsap: +99455-875-16-39**

## Doğru zamanda doğru cavab



Tarixə Hacı Mirzə Həsən Rüşdiyyənin adıyla düşmüş Rüşdiyyə məktəblərində Cənubi Azərbaycanda ana dilində təhsil verilib. Burada fars, fransız dilləri, ədəbiyyat, riyaziyyat, fizika və digər fənlərə də yer ayırılıb. Bu məktəblərin Azərbaycan üçün ən əhəmiyyətli məqamı isə Səfəvilər dövründən sonra Cənubi Azərbaycanda ana dilimizdə açılan ilk milli məktəb olmasıydı. Bəlkə elə buna görə bu təhsil ocaqlarına "Rüşdiyyeyi-Milli" məktəbi də deyilirdi.

Ötən nömrəmizdəki sualımız da elə bu məşhur tarixi şəxsiyyətin adını daşıdığı məktəblərlə bağlı idi. Doğru cavab tapılıb.

**DİN BƏSİ-nin əməkdaşı Lalə İsmayılova** Cənubi Azərbaycanda ana dilimizdə ilk məktəb açan fədakar şəxsiyyətin məhz Hacı Mirzə Həsən Rüşdiyyə olduğunu vatsap nömrəmizə yazıb göndərib.

**Ağsu RPŞ-nin müstəntiqi, polis kapitanı Yaşar Ədilov və baş təhqiqatçı, polis mayoru Vüsal Hüseynov** da düzgün cavabı tapıblar, lakin xanım həmkarımız sualı onlardan tez cavblandırdığına görə rubrikamızın budəfəki qalibi olub.

Həmkarlarımıza cinayətkarlığa qarşı mübarizədə uğurlar arzulayırıq.


## XƏZRİ sizi gözləyir




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 31 may 2023-cü il tarixədək qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

**3.** Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

**4.** 6 yaşadək uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, minifutbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+994 12) 554-47-60;**
**Mobil telefon: (+994 50) 291-15-51; (+994 55) 291-15-51;**
**Faks: (+994 12) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

| 31 may 2023-cü il tarixədək (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


## Hədəfi nişan aldılar

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Cəlilabad Rayon Polis Şöbəsinin şəxsi heyəti arasında güllə atıcılığı üzrə yarış təşkil edilib. N saylı hərbi hissənin atış təlim mərkəzində keçirilən yarışda 1, 2 və 5 nömrəli tapşırıqlar üzrə hədəflərə atəş açılıb. Hər üç normativ üzrə ən sərrast atıcılar şöbə rəhbərliyi tərəfindən fəxri fərmanla təltif edilib.



## KROSS VƏ GİMNASTİKA ÜZRƏ YARIŞLAR DAVAM EDİR

Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sağlam bədəndə sağlam ruh" şüarı altında gənclər arasında keçirilən idmanın kross, eləcə də gimnastika növləri üzrə yarışlar davam etdirilir.

Məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların zərərli vərdişlərdən çəkindirilməsi, habelə sağlam həyat tərzinin və idmanın təbliği, Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi, o cümlədən gənclərin daxili işlər orqanlarında, Daxili Qoşunlarda xidmətə həvəsləndirilməsidir.

Gəncə, Şəmkir, Tovuz, Ağstafa, Qazax, Şirvan, Saatlı və Biləsuvar Olimpiya İdman komplekslərində keçirilən turnirlərdə 14-17, 20-25 yaş arası ümumilikdə 1164 gənc medal uğrunda mübarizə aparıb.

İştirakçılar proqramda müəyyən olunmuş marşurut üzrə 3000 metr kross qaçışını və gimnastika (turnikdə dartınma) hərəkətləri üzrə normativləri yerinə yetiriblər.

Hər bir hərəkət üzrə I, II və III yerləri tutan iştirakçılar diplom, medal, həmçinin qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

*T.Əlizadə*








POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Çapa imzalanmışdır 19:00
Qiyməti 40 qəpik